# "Qəhrəmanlıq muğamlarımızı oxuyanda əsgər olduğumu düşünürəm"

İlk dəfə onu 2000-ci illərin əvvəllərində Uşaq muğam müsabiqəsinin qalibləri sırasında görmüşdüm. Heydər Əliyev adına Sarayda müsabiqənin yekun konserti keçirilirdi. Final konsertində "Şuşanın dağları" mahnısını ifa edirdi. Müsabiqənin qaliblərindən olan bu balaca qızcığaz bənzərsiz ifa tərzi ilə dinləyiciləri heyran etmişdi.



Üstündən illər keçdikdən sonra onunla Muğam Mərkəzində yenidən qarşılaşdıq. Onda Qarabağ düşmən işğalı altında idi. Ermənilər əl-ələ, qol-qola tutub Cıdır düzündə "Yallı" gedirdilər. Ermənistanın baş naziri onu Şuşada qarşılayan yekəqarın generalların qarşısında hakimiyyətin və şərabın nəşəsindən məst olaraq "Qarabağ Ermənistandır, nöqtə" deyirdi.

Mehranə "Qarabağ şikəstəsi" oxuyurdu. Bu çəlimsiz qız sanki oxumurdu, Qarabağda düşmənlərin alovlandırdığı atəşdə yanır, ah-fəğan edirdi, səsindəki həsrət ətrafa od çiləyirdi. Dinləyənlərin gözündə heyrəti, Qarabağ həsrətini görməmək mümkün deyildi. Mikrofonsuz oxuyan bu qızın, şaqraq yanıqlı səsi Muğam Mərkəzində olan dinləyiciləri yerində dondurmuşdu. Arabir əlindəki qavalın arxasından oğrun-oğrun atasına boylanıb meydanda tək olmadığına əmin olmaq istəyirdi. Baş barmağı ilə qızına işarə verib onu ruhlandıran Vəli kişinin isə gözündən yaş süzülürdü. Bilmirəm, əsirlikdə olan Qarabağın dərdinə ağlayırdı, yoxsa Mehranənin uğuruna sevinib göz yaşı tökürdü?! Bircə onu bilirdim ki, Mehranə: "Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ" deyəndə, sanki zalda bir gurultu qopdu... Alqışların ard-arası kəsilmədi.

Haqqında söhbət açdığımız sehrli səsin sahibi, istedadlı xanəndə, gənc pedaqoq, Mehranə Vəliqızı 1993-cü ildə Ucar rayonunun Ramal kəndində anadan olub. Mehranə deyir ki, orta məktəbi Ramal və Şahlıq kəndlərində oxuyub. Uşaqlıqdan ədəbiyyata, milli musiqiyə böyük marağı olub. Bu maraq onu Ucar Rayon Uşaq Musiqi və İncəsənət Məktəbinə aparıb: "Onu da deyim ki, ailədə hamımızın - atamın, anamın, bacı və qardaşımın da gözəl səsləri var. Amma onlar musiqiçi deyillər. Musiqi məktəbinə bacımla birlikdə getsək də, sonradan o, bu yolu davam etdirmədi. Mən isə həyatımı musiqisiz təsəvvür edə bilmədim".

Mehranə Məmmədova 2004-cü və 2006-cı illərdə Astara rayonunda keçirilən Uşaq muğam müsabiqəsinin qaliblərindəndir. Xanəndə o illəri belə xatırlayır: "Respublika sarayında konsert bitəndən sonra səhnə arxasında olanda üzdən tanıdığım, amma adını bilmədiyim bir sənətkar yaxınlaşıb mənə xeyir-dua verdi. Atam məni evə aparmağa gələrkən həmin adamın aşıq Əhliman olduğunu öyrəndim. Aşıq Əhlimanın məsləhəti ilə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə dəvət aldım".

Mehranə deyir ki, orada təhsilini davam etdirmək istəməyib. Çünki arzuları, istəkləri var idi: "Fikirləşirdim ki, yaxşı xanəndə olmaq üçün təkcə istedad kifayət etmir, həm də mükəmməl təhsil almalısan, öz ana dilinin qaydalarını dəqiq bilməlisən. Odur ki, qarşıma məqsəd qoymuşdum ki, ilk növbədə filoloq olmalıyam".

Mehranə Vəliqızı 2010-cu ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olur. Bu ali məktəbdə oxumaq onun sənətə gedən yolunda inamını daha da artırır. İstedadlı müğənni universitetdə təhsil aldığı illəri yada salaraq deyir: "Bir gün tanınmış alim Məti Osmanoğlu dərsinin sonunda tələbələrin istedadı ilə maraqlandı. Tələbə yoldaşlarım, rəfiqələrim müəllimə məndən bəhs edib "oxuyan" olduğumu dedilər. Müəllimimin sözünü yerə sala bilmədim. Onun xahişi ilə "Aşiqəm kimə yalvarım" xalq mahnısından bir bənd oxudum. İnanın, fakültədə səsimi eşidən bütün tələbələr və müəllimlər bizim dərs otağının qarşısına toplaşmışdılar. Məti Osmanoğlu istedadımı yüksək dəyərləndirdi, Milli Konservatoriyada təhsil alıb muğamlarımızı daha dəqiq öyrənməyin vacib olduğunu vurğuladı və məni bu istiqamətə yönləndirdi".

Xanəndə Mehranə Vəliqızının həyatında o gündən yeni bir səhifə açılır. Universitetin tədbirlərində fəal iştirak edir. Eyni zamanda Milli Konservatoriyaya qəbul olmaq üçün hazırlığa başlayır. O, tanınmış muğam ustası, Xalq artisti Mənsum İbrahimovun muğam dərslərində iştirak etməyə başlayır. Çəkilən zəhmət uğurla nəticələnir. Milli Konservatoriyaya qəbul olunan Mehranə Vəliqızı 2019-cu ildə televiziya muğam müsabiqəsinə qatılmaq üçün sənədlərini təqdim edir. Müsabiqənin seçim turunda "Qatar" və "Şahnaz" muğamlarını ifa edərək 400 xanəndə arasından 20 iştirakçı sırasına daxil edilir. VII Muğam Müsabiqəsinin diplomantı olur.

Mehranə xanım hazırda həm xanəndə, həm də filoloqdur. Hər iki sahədə - istər ölkəmizdə, istərsə də ölkəmizdən kənarda keçirilən beynəlxalq elmi konfranslarda, dövlət tədbirlərində, konsertlərdə iştirak edir. Hazırda Azərbaycan Dövlət Pedaqoji Kollecində Ədəbiyyat, Uşaq ədəbiyyatı, Azərbaycan dili, Azərbaycan dilində işgüzar və akademik kommunikasiya fənlərindən dərs deyir.

Xanəndə-filoloq deyir ki, indi konsert zallarında çıxış edərkən qalib bir xalqın müğənnisi olduğum üçün qürur duyur: "Şikəstələrlə yanaşı, qəhrəmanlıq musiqilərimizi, zərb muğamlarımızı, "Heyratı"nı, "Mənsuriyyə"ni oxumağa üstünlük verirəm. Səhnədə muğam oxuyarkən özümü bu xalqın əsgəri hesab edirəm. Bizə qələbə, qəhrəmanlıq yaraşır. Şükürlər olsun ki, Ali Baş Komandanımız bizə bunu yaşatdı".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 23 noyabr, № 255.- S.15.